## *Sankt-Peterburq şəhərində Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş tədbir keçirilib*

Dekabrın 11-də Rusiyanın mədəniyyət mərkəzi hesab olunan Sankt-Peterburq şəhərində "Çinar" Milli-Mədəni Mərkəzinin və Leninqrad Vilayəti Azərbaycan Milli Mədəni Muxtariyyətinin təşəbbüsü və təşkilatçılığı ilə dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş ədəbi-bədii tədbir keçirilmişdir. Tədbirə açılışı 2002-ci ildə həyata keçirilmiş dahi şairin heykəlinin önündən başlanmışdır. Sonra bu tədbir Leninqrad Vilayətinin Dostluq Evində davam etmişdir.

Tədbirdə Sankt-Peterburq şəhərində yaşayan azərbaycanlı ziyalılar, Azərbaycan konsulluğunun nümayəndələri, azərbaycanlı tələbə və məktəblilər, müxtəlif diaspora nümayəndələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə Sankt-Peterburq şəhərində yerləşən 104 saylı orta məktəbin müəllimi, "Çinar" Milli-Mədəni Mərkəzinin həmtəsisçisi, Leninqrad Vilayəti Azərbaycan Milli Mədəni Muxtariyyətinin sədr müavini Ülviyyə Abbasova açmışdır. O, qonaqları salamlayaraq qeyd etmişdir ki, bu il Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Nizami Gəncəvi İli" elan olunmuşdur. Azərbaycanda və eləcə də Azərbaycandan kənarda yaşayan azərbaycanlılar dahi şairin yubileyini dərin ehtiramla yad edirlər. Sankt-Peterburqda yaşayan azərbaycanlılar da vətəndən uzaqda olmalarına baxmayaraq şairin yubileyini qeyd etməyi özlərinə borc bilirlər.

Leninqrad vilayəti administrasiyasının millətlərarası və konfensiyalararası münasibətlər şöbəsinin baş mütəxəssisi Anna İvanovna Melnikova qonaqları salamlayaraq bildirdi ki, Nizami Gəncəvinin qoyub getdiyi irs təkcə Azərbaycan ədəbiyyatı üçün deyil, eyni zamanda bütün dünya ədəbiyyatı üçün də dəyərlidir.



Tədbirə Bakıdan videoəlaqə ilə qoşulan Əlyazmalar İnstitutunun elmi katibi, filologiya elmləri namizədi, fəlsəfə doktoru, dosent Əzizağa Nəcəfzadə "Böyük humanist Nizami Gəncəvi" adlı məruzə ilə, Sankt-Peterburq Dövlət Universitetinin dissertantı Şahnaz Kamal "Nizami Gəncəvi və Sankt-Peterburq", Sankt-Peterburq "Simurq" Gənclər Birliyinin üzvü Fuad Məmmədov "Nizami və Şekspir musiqidə: müqayisə xarakteri" adlı məruzələrlə çıxış etmişlər.

Sankt-Peterburq Dövlət Universitetinin baş müəllimi, şərqşünas, "Çinar" Azərbaycan Milli-Mədəni Mərkəzinin rəhbəri, "Çinar" rəqs ansamblının bədii rəhbəri Xeyransa Mirzəyeva Nizami yaradıcılığından bəhs edərək müxtəlif illərdə Nizami ilə bağlı bu şəhərdə çap olunan kitabları və böyük dəyərə malik eksponatları nümayiş etdirmişdir.

Daha sonra tədbirdə iştirak edən ziyalılar və müxtəlif təşkilatların nümayəndələrinə söz verilmişdir.

Tədbirdə Azərbaycanın Sankt-Peterburqdakı Konsulluğunun humanitar işlər üzrə konsulu Rəhim Rəhimzadə çıxış edərək tədbirin təşkilatçılarına, azərbaycanlı ziyalılara, tələbə və məktəblilərə təşəkkür edərək belə tədbirlərin tez-tez keçirilməsinin vacibliyini vurğulamışdır.

Sankt-Peterburqda yerləşən "Naxçıvan" Azərbaycan dostları cəmiyyətinin "Gənclər və uşaqlar üçün təhsil mərkəzi"nin rəhbəri Həsən Məsimov çıxış edərək Sankt-Peterburqda yaşayan azərbaycanlı məktəblilərin Nizaminin əsərlərinə çəkdikləri illüstrasiyaları nümayiş etdirmişdir.

Tədbirdə Sankt-Peterburq şəhəri 5 saylı kitabxananın müdiri Marqarita Aleksandrovna Furenkova söz alaraq Nizami Gəncəvi irsinin gələcək nəsil üçün nə qədər önəmli olduğunu vurğulamışdır.

Ədəbi-bədii tədbirdə azərbaycanlı məktəblilərin ifasında Nizaminin Azərbaycan və rus dillərində şeirləri səslənmiş, dahi şairin sözlərinə yazılmış romanslar ifa olunmuşdur. Tədbirə Sankt-Peterburqda fəaliyyət göstərən "Çinar" rəqs ansamblı solistlərinin rəqsləri xüsusi rəng qatdı.

**Ədəbiyyat qəzeti.- 25 dekabr.- 2021- ci il.- S. 41.**